AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 3-27-102/3-2-20/1/2024

Bakı şəhəri "04" aprel 2024 il

Dövlət Mülki Aviasiya Agentliyinin 2022-ci il 23 may tarixli 45/1 nömrəli əmri ilə qüvvəyə minmiş "Hava limanlarının (aerodromların, helikopter meydançalarının) fövqəladə hallar üçün fəaliyyət planının tərtib edilməsi üzrə Təlimat"ın 02 nömrəli nəşrinin təsdiq edilməsi barədə

"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə əlaqədar "Hava limanlarının (aerodromların, helikopter meydançalarının) fövqəladə hallar üçün fəaliyyət planının tərtib edilməsi üzrə Təlimat"ın (Təlimat) 02 nömrəli nəşri işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. Sənədin adı "Hava limanlarının (aerodromların) fövqəladə hallar üçün fəaliyyət planının tərtib edilməsi üzrə Təlimat" kimi təsdiq edilsin.
2. Təlimatın 02 nömrəli nəşri 2024-cü ilin 15 aprel tarixindən qüvvəyə minsin.
3. Təlimat Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və DMAA-nın tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən öyrənilməsi və icrası təmin edilsin.
4. Təlimat DMAA-nın rəsmi internet saytında yerləşdirilsin.
5. Əmr bütün şəxsi heyətə çatdırılsın.
6. Əmrin icrasına nəzarət direktorun müavini Bəhruz Məlikova həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
3-27-102/3-2-20/1/2024 №-li 04 Aprel 2024-cü
il tarixli Əmri ilə TƏSDİQ OLUNUB

HAVA LİMANLARININ (AERODROMLARIN) FÖVQƏLADƏ HALLAR ÜÇÜN FƏALİYYƏT PLANININ TƏRTİB EDİLMƏSİ ÜZRƏ TƏLİMAT

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № G-AGA-031

Nəşr № 02

Qüvvəyə minmə tarixi: 15 APREL 2024-cü il

Bakı

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 MÜNDARİCAT

0 SƏNƏDƏ NƏZARƏT və İDARƏEDİLMƏ 1

0.1 Mündaricat 1
0.2 Səhifələrin Siyahısı 3
0.3 Sənədin Yayılma Siyahısı 5
0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 6

1 ÜMUMİ MÜDDƏALAR 7

1.1 Giriş 7
1.2 Ümumi Tələblər 7
1.3 Fəaliyyət Planinin Strukturu 8
1.4 Sənədin Rekvizitləri 9
1.5 Ümumi Müddəalar 9
1.6 Anlayişlar 9
1.7 İstinad Edilən Normativ Aktlar 9

2 AVİASİYA HADİSƏLƏRİ 1

2.1 Hava Limaninda (Aerodromda) Baş Verən Aviasiya Hadisəsi 1
2.2 Hava Limaninin (Aerodromun) Yaxin Ətrafinda Baş Verən Aviasiya Hadisəsi 1
2.3 Uçuşda Baş Verən İnsidentlər 1
2.4 Yerdə Olan Hava Gəmisi İlə Əlaqədar Fövqəladə Hallar 1
2.5 Hava Limaninda (Aerodromda) Baş Verən Təbii Və Texnogen Mənşəli Fövqəladə Hallar 1
2.6 Yoluxucu Xəstəliklər 1
2.7 Əldəqayirma Partlayici Qurğu İlə Əlaqədar Qanunsuz Müdaxilə Akti 1
2.8 Kimyəvi, Bioloji Və Radioaktiv Maddələrlə Əlaqədar Qanunsuz Müdaxilə Akti 1
2.9 Girov Götürmə İlə Əlaqədar Qanunsuz Müdaxilə Akti 1
2.10 Kütləvi İğtişaş 1
2.11 Rabitə Və Xəbərdarliq Sistemi 1
2.12 Fövqəladə Hallarin İdarə Olunmasi Mərkəzi Və Səyyar Komanda Məntəqəsi 1
2.13 Qrid Xəritələri 1
2.14 Tibbi Yardimin Təşkili 1
2.15 Təlimlərin Keçirilməsi Və Səmərəliliyin Qiymətləndirilməsi 2
2.16 Əlavələr 2

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 00	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	15.APR.2024	00
2	15.APR.2024	00
3	15.APR.2024	00
4	15.APR.2024	00
5	15.APR.2024	00
6	15.APR.2024	00
	Hissə 01	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	15.APR.2024	00
2	15.APR.2024	00
3	15.APR.2024	00
4	15.APR.2024	00
	Hissə 02	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	15.APR.2024	00
2	15.APR.2024	00
3	15.APR.2024	00
4	15.APR.2024	00
5	15.APR.2024	00
6	15.APR.2024	00
7	15.APR.2024	00
8	15.APR.2024	00
9	15.APR.2024	00
10	15.APR.2024	00
11	15.APR.2024	00
12	15.APR.2024	00

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Quality Control And Rulemaking	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Quality Control And Rulemaking	Q-Pulse
2	**(S)**	Keyfiyyətə Nəzarət İdarəsi	DMAA-nın rəsmi saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	23.MAY.2022	Əmr № 45/1, tarix 23.may.2022	
Nəşr № 02	15.APREL.2024	Əmr № 3-27-102/3-2-20/1/2024 tarix 04.04.24	Aviasiya Haqqında Qanun

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMİ MÜDDƏALAR

1.1 GİRİŞ

1.1.1. Hava limanlarının (aerodromların) fövqəladə hallar üçün fəaliyyət planının tərtib edilməsi üzrə Təlimat (bundan sonra - Təlimat) Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasına 14-cü (Aerodromlar. I cild. Aerodromun layihələndirilməsi və istismarı) və 17-ci Əlavələrə (Aviasiya təhlükəsizliyi. Beynəlxalq mülki aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması), "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 10.17-ci maddəsinə, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın tələblərinə, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) Doc 8973 "Aviasiya təhlükəsizliyi üzrə Təlimat"ına və Doc 9137 "Hava limanı xidmətləri Təlimatı"nın 7-ci hissəsinə ("Hava limanlarının fövqəladə hallar üçün fəaliyyət planı") uyğun olaraq hazırlanmışdır.

1.1.2. Bu Təlimatın məqsədi hava limanının (aerodromun) istismarçısına fövqəladə hallar üçün fəaliyyət planının (bundan sonra - Fəaliyyət Planı) tərtib edilməsində metodiki dəstək göstərilməsidir.

1.2 ÜMUMI TƏLƏBLƏR

1.2.1. Hava limanının (aerodromun) istismarçısı tərəfindən istismar olunan hava gəmilərinin xüsusiyyətləri və yerli şərait nəzərə alınmaqla, Fəaliyyət Planı hazırlanır.

1.2.2. Hava limanında (aerodromda) və onun yaxın ətrafında baş verən fövqəladə hallar zamanı öz səlahiyyətləri daxilində dövlət orqanları və xidmət təminatçıları tərəfindən yerinə yetirilməsi zəruri olan tədbirlər Fəaliyyət Planında öz əksini tapır.

1.2.3. Fəaliyyət Planında hər bir fövqəladə halla əlaqədar aşağıdakılar göstərilir:

1. xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi;
2. xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının vəzifələri;
3. aidiyyəti dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi.

1.2.4. Fəaliyyət Planı onun icrasına cəlb edilmiş dövlət orqanları və xidmət təminatçıları, habelə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Aviasiya Agentliyi) ilə razılaşdırılmalı və hava limanının (aerodromun) istismarçısı tərəfindən təsdiq olunur.

1.2.5. Fəaliyyət Planı dövlət dilində tərtib edilməlidir. Zərurət yarandıqda, Fəaliyyət Planı BMAT-ın işçi dillərindən birinə tərcümə edilə bilər.

1.2.6. Fəaliyyət Planının mətni A4 formatında (210 mm x 297 mm) (qrid xəritələri daha böyük ölçülü kağızda çap edilə bilər) ağ kağızda, "Arial" 12 şrifti ilə 1,0 sətirarası intervalla (cədvəllər 12 şrift ilə 1,0 sətirarası intervalla) qara rənglə yazılmalıdır. Fəaliyyət Planının fəsillərinin adları böyük hərflərlə, tünd qara rənglə yazılır.

1.2.7. Fəaliyyət Planının titul səhifəsi nömrələnmir, növbəti səhifəsi "2" rəqəmindən başlayaraq, digər bütün səhifələri ərəb rəqəmləri ilə ardıcıl nömrələnir. Fəaliyyət Planının səhifələrinin sıra nömrəsi hər bir səhifənin yuxarı kənar tərəfində yazılır.

1.2.8. Fəaliyyət Planı ən azı ildə 1 (bir) dəfə təftiş edilməli, zərurət olduqda ona əlavə və dəyişikliklər edilməlidir.

1.2.9. Aviasiya Agentliyinin tələbi ilə hava limanının (aerodromun) istismarçısı tərəfindən Fəaliyyət Planında müvafiq əlavə və dəyişikliklər edilməlidir.

1.2.10. Fəaliyyət Planına hər hansı əlavə və dəyişikliklər Fəaliyyət Planının icrasına cəlb edilmiş aidiyyəti dövlət orqanları və xidmət təminatçıları, habelə Aviasiya Agentliyi ilə razılaşdırılmalı və hava limanının (aerodromun) istismarçısı tərəfindən təsdiq olunmalıdır.

1.2.11. Hava limanının (aerodromun) istismarçısı tərəfindən Fəaliyyət Planına edilən əlavə və dəyişikliklər barədə Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanlarına və xidmət təminatçılarına məlumat verilməlidir.

1.2.12. Hava limanının (aerodromun) istismarçısı tərəfindən Fəaliyyət Planının tərtib edilməsinə, tətbiqinə və icrasına nəzarət edilməsinə, habelə Fəaliyyət Planına əlavə və dəyişikliklər edilməsinə və bu barədə Aviasiya Agentliyinə və Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanlarına və xidmət təminatçılarına məlumat verilməsinə cavabdeh olan məsul şəxs təyin edilməlidir.

1.2.13. Hava limanının (aerodromun) istismarçısı tərəfindən Fəaliyyət Planının icrasına cəlb edilmiş hər bir dövlət orqanının və xidmət təminatçısının Fəaliyyət Planında nəzərdə tutulan vəzifələri, Fəaliyyət Planından çıxarış şəklində həmin dövlət orqanına və xidmət təminatçısına göndərilməlidir. Bundan əlavə, Fəaliyyət Planının bütün nüsxələri nömrələnməli və bir nüsxəsi Aviasiya Agentliyinə göndərilməlidir.

1.2.14. Fəaliyyət Planına “Xidməti istifadə üçün” qrifi verilməlidir.

1.3 FƏALIYYƏT PLANININ STRUKTURU

Fəaliyyət Planı aşağıdakı struktura malik olmalıdır:

Sənədin rekvizitləri;
Ümumi müddəalar;
Anlayışlar;
İstinad edilən normativ aktlar;
Fəsil 1. Hava limanında (aerodromda) baş verən aviasiya hadisəsi;
Fəsil 2. Hava limanının (aerodromun) yaxın ətrafında baş verən aviasiya hadisəsi;
Fəsil 3. Uçuşda baş verən insident (tam fövqəladə hal və yerli gözləmə);
Fəsil 4. Yerdə olan hava gəmisi ilə əlaqədar fövqəladə hal;
Fəsil 5. Hava limanının (aerodromun) ərazisində və ya infrastruktur obyektində baş verən təbii və texnogen mənşəli fövqəladə hal;
Fəsil 6. Yoluxucu xəstəliklər;
Fəsil 7. Əldəqayırma partlayıcı qurğularla əlaqədar qanunsuz müdaxilə aktı;
Fəsil 8. Kimyəvi, bioloji və radioaktiv maddələrlə əlaqədar qanunsuz müdaxilə aktı;
Fəsil 9. Girov götürmə ilə əlaqədar qanunsuz müdaxilə aktı;
Fəsil 10. Kütləvi iğtişaş;
Fəsil 11. Fövqəladə halların idarə olunması mərkəzi və səyyar komanda məntəqəsi;
Fəsil 12. Qrid xəritələri;
Fəsil 13. Tibbi yardımın təşkili;
Fəsil 14. Rabitə və xəbərdarlıq sistemi;
Fəsil 15. Təlimlərin keçirilməsi və səmərəliliyin qiymətləndirilməsi;
Əlavələr.

1.4 SƏNƏDIN REKVIZITLƏRI

1.4.1. Bu fəsil özündə aşağıdakıları ehtiva etməlidir:

1. “Fəaliyyət Planını razılaşdırma və təsdiqetmə” bölməsi. Bu bölmədə Fəaliyyət Planının razılaşdırıldığı hər bir dövlət orqanının və xidmət təminatçısının səlahiyyətli nümayəndəsinin, habelə Fəaliyyət Planını təsdiq edən şəxsin adı və imzalama tarixi göstərilməlidir.
2. “Fəaliyyət Planının təftiş edilməsi” bölməsi. Bu bölmədə Fəaliyyət Planını təftiş edən şəxsin adı və təftişin tarixi göstərilməlidir.
3. “Fəaliyyət Planına edilmiş əlavə və dəyişikliklər” bölməsi. Bu bölmədə Fəaliyyət Planına edilmiş əlavə və dəyişikliklər, onların edilmə və qüvvəyə minmə tarixləri göstərilməlidir.
4. “Fəaliyyət Planına cavabdeh olan məsul şəxs” bölməsi. Bu bölmədə Fəaliyyət Planının tərtib edilməsinə, tətbiqinə və icrasına nəzarət edilməsinə, habelə Fəaliyyət Planına əlavə və dəyişikliklər edilməsinə və bu barədə Aviasiya Agentliyinə və Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanlarına və xidmət təminatçılarına məlumat verilməsinə cavabdeh olan məsul şəxs göstərilməlidir.
5. “Fəaliyyət Planının nüsxələrinin (çıxarışların) göndərildiyi dövlət orqanları və xidmət təminatçıları” bölməsi. Bu bölmədə Fəaliyyət Planının nömrələnmiş nüsxələrinin (çıxarışların) göndərildiyi dövlət orqanlarının və xidmət təminatçılarının siyahısı verilməlidir.

1.5 ÜMUMI MÜDDƏALAR

Ümumi müddəalarda Fəaliyyət Planının məqsədi və əhatə dairəsi qeyd olunmalıdır.

1.6 ANLAYIŞLAR

İstifadə olunan anlayışlar və onların məzmunu açıqlanmalıdır.

1.7 İSTINAD EDILƏN NORMATIV AKTLAR

İstinad edilən normativ sənədlərin siyahısı göstərilməlidir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

2 AVİASİYA HADİSƏLƏRİ

2.1 HAVA LIMANINDA (AERODROMDA) BAŞ VERƏN AVIASIYA HADISƏSI

2.1.1. Bu fəsildə uçuş və ya enmə əməliyyatı yerinə yetirən hava gəmisinin hava limanının (aerodromun) hüdudları daxilində aviasiya hadisəsinə uğraması zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.1.2. Bu fəsildə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən aviasiya hadisəsinin baş verməsi barədə aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. aviasiya hadisəsinin vaxtı və yeri (qrid xəritəsinə əsasən);
2. aviasiya hadisəsinin xarakteri;
3. hava gəmisinin növü.

Qeyd. *Daha sonra, bortda olan insanların sayı, yanacağın miqdarı, hava gəmisinin istismarçısı və təhlükəli yüklərin mövcudluğu (əgər varsa, təhlükəli yükün sinfi, yarımsinfi, yeri və miqdarı) barədə məlumatlar verilə bilər.*

2.1.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. aviasiya hadisəsi barədə xəbardarlıq etmək;
2. təhlükəyə məruz qalan insanları xilas etmək;
3. yanğınları söndürmək;
4. xəsarət almış insanlara ilk tibbi və digər yardımlar göstərmək;
5. xəsarət almış insanları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisindən yanacağı boşaltmaq;
8. hava gəmisinin qalıqlarını yığışdırmaq;
9. digər zəruri tədbirlər.

2.1.4. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.2 HAVA LİMANİNİN (AERODROMUN) YAXİN ƏTRAFİNDA BAŞ VERƏN AVİASİYA HADİSƏSİ

2.2.1. Bu fəsildə uçuş və ya enmə əməliyyatı yerinə yetirən hava gəmisinin hava limanının (aerodromun) yaxın ətrafında aviasiya hadisəsinə uğraması zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.2.2. Bu fəsildə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən aviasiya hadisəsinin baş verməsi barədə aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. aviasiya hadisəsinin vaxtı və yeri (qrid xəritəsinə əsasən);
2. aviasiya hadisəsinin xarakteri;

3. hava gəmisinin növü;

Qeyd. *Daha sonra, bortda olan insanların sayı, yanacağın miqdarı, hava gəmisinin istismarçısı və təhlükəli yüklərin mövcudluğu (əgər varsa, təhlükəli yükün sinfi, yarımsinfi, yeri və miqdarı) barədə məlumatlar verilə bilər.*

2.2.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. aviasiya hadisəsi barədə xəbardarlıq etmək;
2. təhlükəyə məruz qalan insanları xilas etmək;
3. yanğınları söndürmək;
4. xəsarət almış insanlara ilk tibbi və digər yardımlar göstərmək;
5. xəsarət almış insanları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisindən yanacağı boşaltmaq;
8. hava gəmisinin qalıqlarını yığışdırmaq;
9. digər zəruri tədbirlər.

2.2.4. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.2.5. Su hövzələrinin və digər çətin keçilən ərazilərin yaxınlığında yerləşən hava limanlarının (aerodromların) Fəaliyyət Planının bu fəslində belə ərazilərdə baş verən aviasiya hadisəsi zamanı hava gəmisinin bortunda olan insanların xilas edilməsi üçün nəzərdə tutulan ixtisaslaşmış xilasetmə komandaları və xüsusi xilasetmə vasitələri barədə məlumat verilməlidir.

2.2.6. Fəaliyyət Planının bu fəslində əsas və ehtiyat çıxış qapılarının yeri göstərilməlidir.

2.2.7. Bu fəsildə ən azı ayda 1 (bir) dəfə əsas və ehtiyat çıxış qapılarının sazlığının və onların ətrafında hərəkəti ləngidən maneələrin olub olmamasının yoxlanılmasına cavabdeh olan məsul şəxs və ya qurum göstərilməlidir.

2.2.8. Bu fəsildə ən azı ildə 2 (iki) dəfə hər bir uçuş-enmə zolağının sonundan 1000 (min) metr məsafəyə qədər olan ərazilərdə aerodrom xilasetmə və yanğınsöndürmə avtomobillərinin hərəkətini məhdudlaşdıran təbii və ya süni maneələrin olub olmamasının yoxlanılmasına cavabdeh olan məsul şəxs və ya qurum göstərilməlidir.

2.3 UÇUŞDA BAŞ VERƏN İNSIDENTLƏR

2.3.1. Bu fəsildə uçuşda baş verən insidentlər öz xarakterinə görə “Tam fövqəladə hal” və “Yerli gözləmə” kimi təsnifatlandırılmalıdır.

2.3.2. Bu fəsildə “Tam fövqəladə hal” zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.3.3. Bu fəsildə “Tam fövqəladə hal” zamanı hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. uçuş enmə zolağı;
2. insidentin xarakteri;
3. hava gəmisinin növü;
4. yanacağın miqdarı;
5. bortda olan insanların sayı (xüsusi qayğıya ehtiyacı olan insanlar daxil olmaqla);

6. hava gəmisinin gözlənilən enmə vaxtı;
7. təhlükəli yüklərin mövcudluğu (əgər varsa, təhlükəli yükün sinfi, yarımsinfi, yeri və miqdarı).

2.3.4. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:
1. uçuşda baş verən insident barədə xəbardarlıq etmək;
2. təhlükəyə məruz qalan insanları xilas etmək;
3. yanğınları söndürmək;
4. xəsarət almış insanlara ilk tibbi və digər yardımlar göstərmək;
5. xəsarət almış insanları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisindən yanacağı boşaltmaq;
8. hava gəmisinin qalıqlarını yığışdırmaq;
9. digər zəruri tədbirlər.

2.3.5. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.3.6. Bu fəsildə “Yerli gözləmə” zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.3.7. Bu fəsildə “Yerli gözləmə” zamanı hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:
1. dayanacağın nömrəsi;
2. insidentin xarakteri;
3. hava gəmisinin növü;
4. yanacağın miqdarı;
5. bortda olan insanların sayı (xüsusi qayğıya ehtiyacı olan insanlar daxil olmaqla);
6. hava gəmisinin gözlənilən enmə vaxtı;
7. təhlükəli yüklərin mövcudluğu (əgər varsa, təhlükəli yükün sinfi, yarımsinfi, yeri və miqdarı)
8. hava gəmisinin istismarçısı.

2.3.8. Bu fəsildə “Yerli gözləmə” zamanı insidentin xarakterinə uyğun olaraq əməliyyatlara cəlb olunan dövlət orqanları və xidmət təminatçıları, onların vəzifələri və hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.3.9. Bu fəsildə toplanış zonalarının yeri (qrid xəritəsinə əsasən) göstərilməlidir.

2.4 YERDƏ OLAN HAVA GƏMİSİ İLƏ ƏLAQƏDAR FÖVQƏLADƏ HALLAR

2.4.1. Bu fəsildə dayanacaqda, perronda, anqarda və ya sükan yollunda olan hava gəmisində yanğının baş verməsi, yerdə olan bir hava gəmisinin digər hava gəmisi ilə və ya avtomobillə toqquşması, hava gəmisinin ətrafına yanacağın dağılması və digər insidentlər zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.4.2. Əgər yerdə olan hava gəmisi ilə əlaqədar fövqəladə halın baş verməsi barədə məlumat bilavasitə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən verilirsə,

bu fəsildə həmin təchizatçı tərəfindən aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. fövqəladə halın vaxtı və yeri (qrid xəritəsinə əsasən);
2. fövqəladə halın xarakteri;
3. hava gəmisinin növü;

Qeyd. *Daha sonra, bortda olan insanların sayı, yanacağın miqdarı, hava gəmisinin istismarçısı və təhlükəli yüklərin mövcudluğu (əgər varsa, təhlükəli yükün sinfi, yarımsinfi, yeri və miqdarı) barədə məlumatlar verilə bilər.*

2.4.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. fövqəladə hal barədə xəbardarlıq etmək;
2. təhlükəyə məruz qalan insanları xilas etmək;
3. yanğınları söndürmək;
4. xəsarət almış insanlara ilk tibbi və digər yardımlar göstərmək;
5. xəsarət almış insanları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisindən yanacağı boşaltmaq;
8. hava gəmisinin qalıqlarını yığışdırmaq;
9. digər zəruri tədbirlər.

2.4.4. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.5 HAVA LİMANİNDA (AERODROMDA) BAŞ VERƏN TƏBİİ VƏ TEXNOGEN MƏNŞƏLİ FÖVQƏLADƏ HALLAR

2.5.1. Bu fəsildə hava limanında (aerodromda) baş verən təbii mənşəli fövqəladə hallar, habelə yanğınlar, partlayışlar, qəzalar və təhlükəli yüklərlə əlaqədar hadisələr zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.5.2. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. fövqəladə hal barədə xəbardarlıq etmək;
2. təhlükəyə məruz qalan insanları və əmlakı xilas etmək;
3. yanğınları söndürmək;
4. təhlükəyə məruz qalan insanlara ilk tibbi və digər yardımlar göstərmək;
5. xəsarət almış insanları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. çirklənmiş ərazini və əşyaları deqazasiya, dezinfeksiya və ya dezaktivasiya etmək;
8. təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerdə olan hava gəmilərinin yerlərini dəyişdirmək;
9. digər zəruri tədbirlər.

2.5.3. Bu fəsildə 6 və 7-ci sinif təhlükəli yüklərlə əlaqədar hadisələr zamanı əməliyyatlara cəlb edilən personalın istifadəsi üçün nəzərdə tutulan xüsusi fərdi mühafizə vasitələrinin sayı və onların saxlanıldığı yer göstərilməlidir.

2.5.4. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.6 YOLUXUCU XƏSTƏLIKLƏR

2.6.1. Bu fəsildə hava limanının (aerodromun) ərazisində yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxs aşkarlandıqda və ya belə şəxsin olması barədə məlumat daxil olduqda, xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.6.2. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxsləri digər şəxslərdən təcrid etmək, onları müayinə etmək və ilk tibbi yardım göstərmək;
2. yoluxucu xəstəliyə yoluxmuş şəxslərin təcrid edilmiş yerdə müvəqqəti olaraq yerləşdirmək və onların müvafiq tibb müəssisələrinə təxliyə edilməsini təşkil etmək;
3. yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxslərin ünsiyyətdə olduğu şəxsləri müəyyən etmək;
4. yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxslərin müayinə edildiyi, ilk tibbi yardım göstərildiyi və müvəqqəti yerləşdirildiyi əraziyə kənar şəxslərin daxil olmasının qarşısını almaq;
5. çirklənmiş ərazini və əşyaları dezinfeksiya etmək.

2.6.3. Bu fəsildə hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.6.4. Bu fəsildə yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxslərin müvəqqəti yerləşdirilməsi üçün nəzərdə tutulan təcrid edilmiş yer (otaq) göstərilməlidir.

2.6.5. Bu fəsildə yoluxucu xəstəliyə yoluxmuş və ya yoluxmasından şübhə edilən şəxslərin müayinə edilməsi, ilk tibbi yardımın göstərilməsi və tibb müəssisələrinə təxliyə edilməsi əməliyyatlarına cəlb olunmuş personalın istifadəsi üçün nəzərdə tutulan xüsusi fərdi mühafizə vasitələrinin və dezinfeksiya vasitələrinin miqdarı və onların saxlanıldığı yer göstərilməlidir.

2.7 ƏLDƏQAYİRMA PARTLAYİCİ QURĞU İLƏ ƏLAQƏDAR QANUNSUZ MÜDAXİLƏ AKTİ

2.7.1. Bu fəsildə hava limanın (aerodromun) ərazisində və ya hava gəmisində əldəqayırma partlayıcı qurğunun (ƏPQ) və ya içərisində ƏPQ-nin olmasından şübhə edilən bağlamanın (əşyanın) aşkarlanması, ƏPQ-nin yerləşdirilməsi barədə məlumatın daxil olması və ya ƏPQ-nin partladılması zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.7.2. Bu fəsildə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən hava gəmisində ƏPQ ilə əlaqədar qanunsuz müdaxilə aktının baş verməsi barədə aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. hava gəmisinin növü və tanınma indeksi;
2. hava gəmisinin qeydiyyat və istismarçı dövləti;
3. məlum və təxmin edilən təyinat hava limanı və hesablanmış enmə vaxtı;
4. məlum və təxmin edilən uçuş marşrutu;
5. uçuş planına dair əlavə məlumatlar (yanacaq ehtiyatına uyğun olaraq uçuş vaxtı, hava gəmisinin ekipaj üzvlərinin, sərnişinlərin və digər şəxslərin sayı);
6. heyət üzvləri barədə məlumat (hazırlıq səviyyəsi, fiziki vəziyyəti və s.);
7. qanunsuz müdaxilə aktını törətmiş şəxslər və onların irəli sürdüyü tələblər;
8. qanunsuz müdaxilə aktı nəticəsində vətəndaşı ölmüş, yaralanmış və ya saxlanılmış, girov götürülmüş dövlət;
9. hava gəmisinin bortunda ölənlərin və yaralıların sayı;
10. silah, təhlükəli yük, partlayıcı və digər qurğuların tipi, sayı və s.;
11. digər tələb olunan məlumatlar.

2.7.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. qanunsuz müdaxilə aktı barədə xəbardarlıq etmək;
2. ƏPQ ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisini təcrid edilmiş dayanacaq yerində yerləşdirmək;
3. təhlükəyə məruz qalan şəxsləri təxliyə etmək;
4. yanğınları söndürmək;
5. xəsarət almış şəxslərə ilk tibbi yardım göstərmək və onları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisinə və ya hava limanının (aerodromun) infrastruktur obyektlərinə baxış keçirmək;
8. sərnişinlərə, onların əl yüklərinə və baqajlarına, habelə yükə, poçta və bort ehtiyatlarına (qidalarına) baxış keçirmək;
9. aşkarlanmış ƏPQ-nin və ya içərisində ƏPQ-nin olmasından şübhə edilən əşyanın (bağlamanın) zərərsizləşdirmə yerinə daşımaq və zərərsizləşdirmək.

2.7.4. Bu fəsildə hansı dövlət orqanının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.7.5. Bu fəsildə ƏPQ ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisinin yerləşdirilməsi üçün nəzərdə tutulan təcrid edilmiş dayanacaq və zərərsizləşdirmə yerləri (qrid xəritəsinə əsasən) göstərilməlidir.

2.8 KİMYƏVİ, BİOLOJİ VƏ RADİOAKTİV MADDƏLƏRLƏ ƏLAQƏDAR QANUNSUZ MÜDAXİLƏ AKTİ

2.8.1. Bu fəsildə hava limanın (aerodromun) ərazisində və ya hava gəmisində kimyəvi, bioloji və radioaktiv (KBR) maddələrin və ya içərisində KBR maddələrin olmasından şübhə edilən bağlamın (əşyanın) aşkarlanması, habelə KBR maddələrin yerləşdirilməsi barədə məlumatın daxil olması zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.8.2. Bu fəsildə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən hava gəmisində ƏPQ ilə əlaqədar qanunsuz müdaxilə aktının baş verməsi barədə aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. hava gəmisinin növü və tanınma indeksi;

2. hava gəmisinin qeydiyyat və istismarçı dövləti;
3. məlum və təxmin edilən təyinat hava limanı və hesablanmış enmə vaxtı;
4. məlum və təxmin edilən uçuş marşrutu;
5. uçuş planına dair əlavə məlumatlar (yanacaq ehtiyatına uyğun olaraq uçuş vaxtı, hava gəmisinin ekipaj üzvlərinin, sərnişinlərin və digər şəxslərin sayı);
6. heyət üzvləri barədə məlumat (hazırlıq səviyyəsi, fiziki vəziyyəti və s.);
7. qanunsuz müdaxilə aktını törətmiş şəxslər və onların irəli sürdüyü tələblər;
8. qanunsuz müdaxilə aktı nəticəsində vətəndaşı ölmüş, yaralanmış və ya saxlanılmış, girov götürülmüş dövlət;
9. hava gəmisinin bortunda ölənlərin və yaralıların sayı;
10. silah, təhlükəli yük, partlayıcı və digər qurğuların tipi, sayı və s.;
11. digər tələb olunan məlumatlar.

2.8.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:
1. qanunsuz müdaxilə aktı barədə xəbardarlıq etmək;
2. KBR maddələri ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisinin təcrid edilmiş dayanacaq yerində yerləşdirmək;
3. təhlükəyə məruz qalan şəxsləri təxliyə və müayinə etmək;
4. yanğınları söndürmək;
5. xəsarət almış şəxslərə ilk tibbi yardım göstərmək və onları tibb müəssisələrinə təxliyə etmək;
6. ərazini mühafizə etmək;
7. hava gəmisinə və ya hava limanının (aerodromun) infrastruktur obyektinə baxış keçirmək;
8. sərnişinlərə, onların əl yüklərinə və baqajlarına, habelə yükə, poçta və bort ehtiyatlarına (qidalarına) baxış keçirmək;
9. KBR maddələri ilə çirklənmiş ərazininin hüdudlarını və əşyaları müəyyən etmək;
10. aşkarlanmış KBR maddələrinin və ya içərisində KBR maddələrinin olmasından şübhə edilən əşyanı (bağlamanı) zərərsizləşdirmə yerinə daşımaq və zərərsizləşdirmək;
11. KBR maddələri ilə çirklənmiş ərazini və əşyaları dezinfeksiya, deqazasiya və ya dezaktivasiya etmək.

2.8.4. Bu fəsildə hansı dövlət orqanının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.8.5. Bu fəsildə KBR maddələri ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisinin yerləşdirilməsi üçün nəzərdə tutulan təcrid edilmiş dayanacaq və zərərsizləşdirmə yerləri (qrid xəritəsinə əsasən) göstərilməlidir.

2.8.6. Bu fəsildə KBR maddələri ilə əlaqədar qanunsuz müdaxilə aktı zamanı əməliyyatlara cəlb edilən personalın istifadəsi üçün nəzərdə tutulan xüsusi fərdi mühafizə vasitələrinin siyahısı və onların saxlanıldığı yer göstərilməlidir.

2.9 GİROV GÖTÜRMƏ İLƏ ƏLAQƏDAR QANUNSUZ MÜDAXİLƏ AKTİ

2.9.1. Bu fəsildə hava limanın (aerodromun) ərazisində və ya hava gəmisinin bortunda girov götürmə zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.9.2. Bu fəsildə hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən hava gəmisinin bortunda girov götürmə barədə aşağıdakı məlumatların xəbərdarlıq sxeminə uyğun olaraq ötürülməsi qeyd edilməlidir:

1. hava gəmisinin növü və tanınma indeksi;
2. hava gəmisinin qeydiyyat və istismarçı dövləti;
3. məlum və təxmin edilən təyinat hava limanı və hesablanmış enmə vaxtı;
4. məlum və təxmin edilən uçuş marşrutu;
5. uçuş planına dair əlavə məlumatlar (yanacaq ehtiyatına uyğun olaraq uçuş vaxtı, hava gəmisinin ekipaj üzvlərinin, sərnişinlərin və digər şəxslərin sayı);
6. heyət üzvləri barədə məlumat (hazırlıq səviyyəsi, fiziki vəziyyəti və s.);
7. qanunsuz müdaxilə aktını törətmiş şəxslər və onların irəli sürdüyü tələblər;
8. qanunsuz müdaxilə aktı nəticəsində vətəndaşı ölmüş, yaralanmış və ya saxlanılmış, girov götürülmüş dövlət;
9. hava gəmisinin bortunda ölənlərin və yaralıların sayı;
10. silah, təhlükəli yük, partlayıcı və digər qurğuların tipi, sayı və s.;
11. digər tələb olunan məlumatlar.

2.9.3. Bu fəsildə aşağıdakı tədbirlərin yerinə yetirilməsinə cəlb edilən dövlət orqanları və xidmət təminatçıları, habelə onların vəzifələri göstərilməlidir:

1. qanunsuz müdaxilə aktı barədə xəbardarlıq etmək;
2. girov götürmə ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisini təcrid edilmiş dayanacaq yerində yerləşdirmək;
3. təhlükəyə məruz qalan şəxsləri təxliyə etmək;
4. hadisə yerinin ətrafında daxili və xarici kardon yaratmaq;
5. xəsarət almış şəxslərə ilk tibbi yardım göstərmək və onları tibb müəssisələrinə təxliyə etmək;
6. yanğınları söndürmək;
7. aşkarlanmış təhlükəli predmetləri zərərsizləşdirmə yerinə daşımaq və zərərsizləşdirmək.

2.9.4. Bu fəsildə hansı dövlət orqanının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.9.5. İnsanların girov götürülməsi ilə əlaqədar qanunsuz müdaxilə aktına məruz qalan hava gəmisinin yerləşdirilməsi üçün nəzərdə tutulan təcrid edilmiş dayanacaq və zərərsizləşdirmə yerləri (qrid xəritəsinə əsasən) göstərilməlidir.

2.10 KÜTLƏVI İĞTIŞAŞ

2.10.1. Bu fəsildə hava limanın (aerodromun) infrastruktur obyektində ictimai asayişin pozulmasına, habelə insanların həyat və sağlamlığına, ətraf mühitə və əmlaka ziyan vurulmasına səbəb olan hüquqazidd əməllər zamanı xəbərdarlıq edilən dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin göstərildiyi xəbərdarlıq sxemi verilməlidir.

2.10.2. Bu fəsildə kütləvi iğtişaş zamanı əməliyyatlara cəlb olunan dövlət orqanları və xidmət təminatçıları, onların vəzifələri və hansı dövlət orqanının və ya xidmət təminatçısının nümayəndəsi tərəfindən əməliyyatlara rəhbərlik edilməsi göstərilməlidir.

2.11 RABITƏ VƏ XƏBƏRDARLIQ SISTEMI

2.11.1. Bu fəsildə Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanları və xidmət təminatçıları, habelə fövqəladə halların idarə olunması mərkəzi və səyyar komanda məntəqəsi arasında etibarlı və ikitərəfli rabitə əlaqəsinin təmin edilməsi üçün nəzərdə tutulan radiotezlik, telefon nömrələri və rabitə vasitələri göstərilməlidir.

2.11.2. Bu fəsildə rabitə və xəbərdalıq sisteminə cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.11.3. Bu fəsildə rabitə və xəbərdarlıq sisteminə cavabdeh olan məsul şəxs tərəfindən ən azı ayda 1 (bir) dəfə Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanlarının və xidmət təminatçılarının telefon nömrələrinin dəyişilib-dəyişilmədiyinin və işləyib-işləmədiyinin yoxlanılması, telefon nömrələrində dəyişiklik olduqda, bu barədə Fəaliyyət Planının müvafiq hissəsində dəyişiklik edilməsi və Fəaliyyət Planının icrasına cəlb edilmiş dövlət orqanlarına və xidmət təminatçılarına məlumat verilməsi qeyd edilməlidir**.**

2.12 FÖVQƏLADƏ HALLARİN İDARƏ OLUNMASİ MƏRKƏZİ VƏ SƏYYAR KOMANDA MƏNTƏQƏSİ

2.12.1. Bu fəsildə fövqəladə halların idarə olunması mərkəzinin yeri və onun təchiz olunduğu vasitələrin siyahısı göstərilməlidir.

2.12.2. Bu fəsildə fövqəladə halların idarə olunması mərkəzinin aşağıdakı vasitələrlə təchiz olunması barədə məlumat verilməlidir:

1. telefon və radiorabitə vasitələri;
2. hava limanının və ətraf ərazilərin qrid xəritələri;
3. sərnişin və yük terminallarının çertyojları;
4. istismar olunan hava gəmilərinin xilasetmə və yanğınsöndürmə sxemləri;
5. Fəaliyyət Planının 1 (bir) nüsxəsi;
6. digər zəruri vasitələr.

2.12.3. Bu fəsildə səyyar komanda məntəqəsinin təşkil edilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitəsinin saxlanıldığı yer və onun təchiz olunduğu vasitələrin siyahısı göstərilməlidir.

2.12.4. Bu fəsildə səyyar komanda məntəqəsinin aşağıdakı vasitələrlə təchiz olunması barədə məlumat verilməlidir:

1. telefon və radiorabitə vasitələri;
2. səsucaldan;
3. fənər və digər işıqlandırma vasitələri;
4. hava limanının və ətraf ərazilərin qrid xəritələri;
5. sərnişin və yük terminallarının çertyojları;
6. istismar olunan hava gəmilərinin xilasetmə və yanğınsöndürmə sxemləri;
7. fərqləndirici əşya (dama-dama bayraq, yol konusu və s.);
8. digər vasitələr.

2.12.5. Bu fəsildə fövqəladə halların idarə olunması mərkəzinə və səyyar komanda məntəqəsinə cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.13 QRİD XƏRİTƏLƏRİ

2.13.1. Bu fəsildə hava limanının və ətraf ərazilərin qrid xəritələri verilməlidir.

2.13.2. Hava limanının (aerodromun) qrid xəritəsində hərəkət meydanı, təcrid edilmiş dayanacaq yeri, zərərsizləşdirmə yeri, fövqəladə halların idarə olunması mərkəzi, toplanış zonaları, əsas və ehtiyat çıxış qapıları, qarşılama məntəqələri, hava limanının perimetrindən ən azı 1000 (min) məsafəyə qədər olan ərazilər və ehtiyat su mənbələri göstərilməlidir.

2.13.3. Hava limanı (aerodrom) ətrafı ərazilərin qrid xəritəsində hava limanının (aerodromun) mərkəzindən ən azı 8 km məsafədə yerləşən tibb müəssisələri, onlara gedən yollar və çarpayı tutumu, yaşayış və istehsalat binaları və qarşılama məntəqələri göstərilməlidir.

2.13.4. Bu fəsildə hava limanının (aerodromun) və ətraf ərazilərin qrid xəritələrinin nüsxələrinin göndərildiyi dövlət orqanlarının və xidmət təminatçıların siyahısı verilməlidir.

2.13.5. Bu fəsildə hava limanının (aerodromun) və ətraf ərazilərin qrid xəritələri ilə təchiz olunmuş avtomobillərin siyahısı verilməlidir.

2.13.6. Bu fəsildə hava limanının (aerodromun) və ətraf ərazilərin qrid xəritələrinə əlavə və dəyişiklik edildikdə, köhnə nüsxələrin toplanması və məhv edilməsi proseduru göstərilməlidir.

2.14 TIBBI YARDIMIN TƏŞKILI

2.14.1. Bu fəsildə ilk tibbi yardım vasitələrinin siyahısı və onların saxlanıldığı yer, habelə fövqəladə hallar zamanı tibbi yardımın təşkilinə cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.14.2. Bu fəsildə fövqəladə hallar zamanı tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan hər bir tibb müəssisəsinin adı, ünvanı, telefon nömrəsi, ixtisaslaşdığı sahə, çarpayı tutumu, habelə malik olduğu təcili tibbi yardım avtomobillərinin və tənəffüs aparatlarının sayı və digər zəruri məlumatlar göstərilməlidir.

2.14.3. Bu fəsildə fövqəladə hallar zamanı xəsarət almamış və ya yüngül xəsarət almış şəxslərin hadisə yerindən təxliyə edilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələri və belə şəxslərin müvəqqəti yerləşdirilməsi üçün nəzərdə tutulan yerlər göstərilməlidir.

2.14.4. Bu fəsildə fövqəladə hallar zamanı xəsarət almamış və ya yüngül xəsarət almış şəxslərə tibbi, psixoloji, su, qida və digər yardımların göstərilməsi nəzərdə tutulmalıdır.

2.14.5. Bu fəsildə fövqəladə hallar zamanı həlak olmuş şəxslərin cəsədlərinin toplanması üçün nəzərdə tutulan lateks əlcəklərin və cəsəd torbalarının sayı və onların saxlanıldığı yerlər göstərilməlidir.

2.14.6. Bu fəsildə fövqəladə hallar zamanı həlak olmuş şəxslərin cəsədlərinin hadisə yerindən təxliyə edilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələri və cəsədlərin müvəqqəti saxlanılması üçün nəzərdə tutulan yerlər göstərilməlidir.

2.14.7. Bu fəsildə aviasiya hadisələri və digər fövqəladə hallar zamanı xəsarət almış şəxslərə ilk tibbi yardımın göstərilməsi və onların təxliyə edilməsi üçün tələb olunan vasitələrin növü və sayı istismar olunan hava gəmilərinin maksimal sərnişin tutumu

nəzərə almaqla, Doc 9137 “Hava limanı xidmətləri Təlimatı”nın 7-ci hissəsinə (“Hava limanlarının fövqəladə hallar üçün fəaliyyət planı”) uyğun olaraq müəyyənləşdirilməlidir.

2.14.8. Bu fəsildə aviasiya hadisələri və digər fövqəladə hallar zamanı xəsarət almış şəxslərə ilk tibbi yardımın göstərilməsinin və belə şəxslərin tibb müəssisələrinə təxliyə edilməsinin növbəliliyi Doc 9137 “Hava limanı xidmətləri Təlimatı”nın 7-ci hissəsinə (“Hava limanlarının fövqəladə hallar üçün fəaliyyət planı”) uyğun olaraq müəyyənləşdirilməlidir.

2.15 TƏLIMLƏRIN KEÇIRILMƏSI VƏ SƏMƏRƏLILIYIN QIYMƏTLƏNDIRILMƏSI

2.15.1. Bu fəsildə keçirilməsi nəzərdə tutulan təlimlərin növü, miqyası və onların dövriliyi göstərilməlidir.

2.15.2. Bu fəsildə keçirilməsi planlaşdırılan təlimin ssenarisinin, yerinin və vaxtının, təlimə cəlb edilmiş dövlət orqanlarının və xidmət təminatçılarının personalının və texnikasının sayının, habelə təlimin təhlükəsiz keçirilməsi üçün yerinə yetirilməsi zəruri olan tədbirlərin və təlimin digər aspektlərinin göstərildiyi təlim planının hazırlanmasına və onun iştirakı nəzərdə tutulan dövlət orqanları və xidmət təminatçıları ilə əvvəlcədən razılaşdırılmasına cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.15.3. Bu fəsildə hər bir təlimin qiymətləndirilməsi proseduru nəzərdə tutulmalı və qiymətləndirməni həyata keçirməyə cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.15.4. Bu fəsildə təlim zamanı aşkarlanmış nöqsanların, çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması planının hazırlanmasına və bu barədə Aviasiya Agentliyinə məlumat verilməsinə cavabdeh olan məsul şəxs göstərilməlidir.

2.16 ƏLAVƏLƏR

2.16.1. Fəaliyyət Planının əsas fəsillərində istinad edilən, lakin verilməyən məlumatlar (şəkillər, sxemlər, cədvəllər və s.) əlavələrdə göstərilməlidir.

2.16.2. Əlavələr ardıcıl nömrələnməlidir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB